# Müəllim, tədqiqatçı, şair



"Səni mən səmimi bir insan, gözəl müəllim, şair qəlbli bir vətəndaş kimi tanıyıram. "Oqonyok"un səhifələrində şeirini oxudum. Sevindim ki, sənin səsin Moskvanın ən böyük bir jurnalından gəlir. Sən lirik şeirləri daha yaxşı yazırsan. Şeirlərində Vətən, məktəb həyatı poetik ifadəsini tapır. Yeni-yeni şeirlər yazacağına əminəm".

"İnsanda ən gözəl keyfiyyət onun mənən zəngin olmasıdır. Şair qəlbli insanlarda isə belə keyfiyyət fitrətən olur".

Misal gətirdiyimiz bu fikirlər tanınmış pedaqoq və şair, ömrünü bütünlüklə təlim-tərbiyəyə və poeziyaya həsr etmiş, bu günlərdə 80 yaşı tamam olmuş Sadıq Şahsuvar oğlu Xanəliyev haqqındadır. Birinci nümunədəki sözləri xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rüstəm, ikincini isə filologiya elmləri doktoru, professor Şahin Səfərov deyib. Gətirdiyimiz nümunələr olduqca müxtəlif sənət sahibi olan çoxlu sayda tanınmış şəxsin Sadıq müəllim haqqında dedikləri ürəkdən gələn fikirlərin yalnız ikisidir. Sadıq müəllimə isə çoxillik pedaqoji və yaradıcılıq fəaliyyəti dövründə yüzlərcə belə məktub ünvanlanıb. Həmin məktubların müəllifləri arasında kimlər yoxdur? - Admiral Həmid Qasımbəyov, xalq artisti Rza Təhmasib, Belarusun xalq şairi Maksim Tank, admiral, Sovet İttifaqı Qəhrəmanı Vladimir Çernovin, bəstəkar Aleksandr Şerbakov, SSRİ Yazıçılar İttifaqının katibi Oleq Şestinski, Ukraynanın xalq şairi, akademik Mixail Stelmax, xalq şairləri Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub... Hamısı da Sadıq müəllimin yaradıcılığından, şeirlərindən ən gözəl epitetlərlə söz açıb.

Şair Qriqori Koqanın sözlərindən isə öyrənirik ki, hələ sovetlər dövründə Sadıq müəllim bir pedaqoq, şair kimi ittifaqda tanınıb, onun haqqında ölkənin ən nüfuzlu nəşrlərindən biri olan "İzvestiya" qəzetində məqalə dərc olunub və oxucular həmin məqalə ilə onun "kimi gözəl bir insan, vətənpərvər şair və müəllimlə tanış" olublar.

Bizcə, deyilənləri Sadıq müəllimi oxucularımıza tanıtmaq üçün yetərli saymaq olar. Buna baxmayaraq Sadıq müəllimin həyat bioqrafiyasından bəzi məqamları da diqqətə çatdırmağı zəruri sayırıq.

Xanəliyev Sadıq Şahsuvar oğlu 8 mart 1936-cı ildə Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Bist kəndində anadan olub. 1946-1953-cü illərdə Bist kənd orta məktəbində oxuyub. 7-ci sinfi əla qiymətlərlə bitirərək 1953-cü ildə Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun aqronomluq şöbəsinə daxil olub. 1956-cı ildə 4-cü kurs tələbəsi olduğu zaman ordu sıralarında hərbi xidmətə çağırılıb. Ordudan təxris olunduqdan sonra təhsilini davam etdirib və 1960-cı ildə texnikunu bitirərək Bist kəndindəki "Oktyabrın 40 illiyi" adına kolxozda aqronom və kənd orta məktəbində əmək təlimi müəllimi işləyib.

1951-ci ildən rayon və respublika qəzetlərində publisist yazılarla çıxış edib. Şeir yazdığından həmişə filoloq olmaq arzusu ilə yaşayan S.Xanəliyev 1964-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə qəbul olunub. 1964-1970-ci illərdə universitetin "Lenin tərbiyəsi uğrunda" qəzetinin xüsusi müxbiri kimi fəaliyyət göstərib. 1970-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin SSRİ xalqları ədəbiyyatı kafedrasının müdiri, əməkdar elm xadimi Əziz Şərifin həyat yolundan yazdığı diplom işi əla qiymətləndirilib. 1960-2009-cu illərdə Bist kənd orta məktəbində dil-ədəbiyyat müəllimi, təşkilatçı və məktəb direktoru vəzifələrində çalışıb. Uzun illər səmərəli pedaqoji fəaliyyətinə görə S.Xanəliyev Naxçıvan MR-in "Əməkdar müəllim"i fəxri adına layiq görülüb. Azərbaycan müəllimlərinin VI, Azərbaycan Kitabsevərlər Cəmiyyətinin III, IV, V, Ümumittifaq müəllimlərinin birinci qurultaylarının nümayəndəsi olub. 1964-1988-ci illərdə SSRİ məktəblilərinin hər il keçirilən ümumittifaq görüşlərinə dəvət olunaraq respublikamızın ittifaq miqyasında təbliğində mühüm rol oynayıb.

55 il müəllimlik fəaliyyəti dövründə, eyni zamanda Naxçıvan Vilayət Komsomol Komitəsi, Azərbaycan Komsomolu Mərkəzi Komitəsinin, ÜLKGİ Mərkəzi Komitəsinin 30-dan çox fəxri fərmanı, diplomu, döş nişanı ilə təltif olunub.

Şeirləri rus dilində, Ukrayna dilində "Literaturnıy Azərbaydjan", "Oqonyok" "Dnepro" jurnallarında, Moskvanın "Molodaya qvardiya" nəşriyyatının nəşr etdiyi "Polemika" kitabında dərc edilib.

"Yada sal məni", "Xatirə", "Dahilər yetirən müəllim", "Ömür zirvəsi", "Müəllim ömrünün dastanı", "Unuda bilməyəcəyəm" və "Əziz Şərif əsərlərinin biblioqrafiyası" kitablarının müəllifidir.

Azərbaycan yazıçılar, jurnalistlər və aşıqlar birliklərinin üzvüdür. Ukrayna Respublikasının Kliskova kəndinin fəxri üzvü seçilib, bir sıra ədəbi mükafatlarla təltif edilib. Yaradıcılığı ilə bağlı Cəfər Cabbarlı adına "Azərbaycanfilm" studiyasında SSRİ Yazıçılar İttifaqının 1980-ci ildə Bakıda keçirilən ümumittifaq görüşlərinə həsr edilmiş "Blije krovnovo rodstvo" və 2015-ci ildə Naxçıvan MR televiziyasında "Dağlardan baxıram yer kürəsinə" adlı sənədli filmlər çəkilib.

Hazırda əmək veteranı olan Sadıq müəllim Bist kəndində yaşayır, yaradıcılıqla məşğuldur.

Tanınmış müəllim və şairi anadan olmasının 80 illiyi münasibəti ilə təbrik edir, ona möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

**Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*